*N.Çələbiyeva. Müstəqil Azərbaycan dövlətinin qurucusu, tarix yazan dahi şəxsiyyət // Əlyazmalar yanmır, 2023, №1 (16), s. 29-33.*

UOT: 94(479.24)

**Nuranə Çələbiyeva**
*AMEA M. Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç. 26*
*e-mail: nurane-815@mail.ru*

# MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN QURUCUSU, TARİX YAZAN DAHİ ŞƏXSİYYƏT

**Xülasə**

Müdrik siyasətə, dönməz əqidəyə və tarixi uzaqgörənliyə malik olan Heydər Əliyevin adı müasir Azərbaycan dövlətinin qurucusu və memarı kimi tarixdə iz qoymuşdur.

Müstəqil Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə elm və təhsilin inkişafına xüsusi qayğı ilə yanaşaraq, ilk növbədə, xalqın intelektual gələcəyini düşünmüşdür. Heydər Əliyev dühasının böyüklüyü də məhz ondadır ki, o, bütün fəaliyyəti boyu bu sahələrə diqqət və qayğısını əsirgəməmiş, cəmiyyətdə yüksək bilikli, intelektual və elitar təbəqənin formalaşmasına çalışmışdır.

***Açar sözlər:*** *Azərbaycan, Azərbaycançılıq, xalq, şəxsiyyət, siyasət, əqidə*

## Giriş

*Dahi şəxsiyyətlərdir tarix yazan, xalqların taleyini istiqamətləndirən. Hər bir xalq öz liderinin yaratdığı bir əsərdir. Bəşəriyyət çox nadir hallarda belə tarix yazan şəxsiyyətlər yetişdirir.*

*Tariximizə müstəqil Azərbaycan dövlətinin qurucusu kimi daxil olan, müstəqil Azərbaycanın memarı, tarix yazan dahi şəxsiyyət-Ümummilli Lider Heydər Əliyevdir.*

*70-80-ci illərdə Heydər Əliyev xilaskarlıq missiyasını öz üzərinə götürmüş, qısa vaxt ərzində böhranlar, təhlükələr aradan qaldırılmışdı. Azərbaycanda iqtisadi və siyasi islahatlar keçirilmişdi, ölkə yenidən canlanmışdı. Azərbaycanın iqtisadiyyatı dinamik şəkildə inkişaf etməyə, ölkə inanılmaz dərəcədə müasirləşməyə başlamışdı. Ordumuzun qüdrəti artmış və ölkənin nüfuzu dünya miqyasında yüksəlmişdi.*

*15 iyun 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə gəlməsi Azərbaycanın tarixində yeni bir mərhələ başlatdı. İnsanlarda narahatlıq yaradan təhlükələr, xaoslar, hakimiyyət böhranı aradan qaldırıldı, cəbhədə atəşkəs razılaşmasına nail olundu, ən əsası isə vətəndaş müharibəsinin qarşısı alındı.*

*Böyük neft sazişlərinin imzalanması ölkənin iqtisadi cəhətdən çiçəklənməsini, təhlükəsizliyini həyata keçirərək yeni və müstəqil Azərbaycan dövlətinin təməlini qurdu. Bu dövlətin təməlində Azərbaycançılıq ideologiyasına əsaslanan müstəqillik, dəyər və prinsiplər, güclü iqtisadiyyat dayanırdı.*

*"Əsrin müqaviləsi"nin (1994) imzalanması Heydər Əliyevin müdrik və uzaqgörən şəxsiyyət olmasının sübutu idi.*

Müdrik siyasətə, dönməz əqidəyə və tarixi uzaqgörənliyə malik olan Heydər Əliyevin adı müasir Azərbaycan dövlətinin qurucusu və memarı kimi tarixdə iz qoymuşdur. Bilavasitə, ümummilli lider Heydər Əliyevin sayəsində Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət qurulmuşdur.

Ölkəmizin əsas qanunu olan Konstitusiyamızın qəbul edilməsi də ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyevin xalq qarşısında xidmətləri, arzuları, misilsiz və möhtəşəm idi. Ümummilli Lider deyirdi: "Mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram". Ümummilli lider həyatının mənasını yalnız xalqına xidmətdə görmüş, ömrünü onun firavan, xoşbəxt gələcəyinə həsr etməkdən şərəf duymuşdur. Azərbaycan xalqının tarixini və mədəniyyətini dərindən bilən Ümummilli liderimiz xalqımızı dünya xalqları sırasında hər zaman ön cərgədə görmək istəmiş, müstəqilliyimiz uğrunda bütün varlığı ilə çalışmış, müasir müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu olaraq əvəzsiz və ölçüyəgəlməz tarixi xidmətlər göstərmişdir.

Azərbaycan mədəniyyətinin dünyanın müxtəlif ölkələrində təbliği istiqamətində Heydər Əliyevin gördüyü işlər hər kəsə məlumdur. Nizamiyə, Üzeyir Hacıbəyliyə, Mirzə Fətəli Axundzadəyə, Səməd Vurğuna və digər milli fikir sahiblərinə həsr edilmiş tədbirlərin müxtəlif şəhərlərdə təşkil edilməsi buna misaldır. Azərbaycan muğam ustaları dünyanın bir çox ölkələrində milli musiqini təbliğ edirdilər. Milli mədəniyyət nümunələrinin sərgiləri təşkil olunurdu. Bütün bunlar Heydər Əliyevin siyasətçi kimi fəaliyyətinin birbaşa nəticəsi idi.

Müstəqil Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə elm və təhsilin inkişafına xüsusi qayğı ilə yanaşaraq, ilk növbədə, xalqın intelektual gələcəyini düşünmüşdür. Heydər Əliyev dühasının böyüklüyü də məhz ondadır ki, o, bütün fəaliyyəti boyu bu sahələrə diqqət və qayğısını əsirgəməmiş, cəmiyyətdə yüksək bilikli, intelektual və elitar təbəqənin formalaşmasına çalışmışdır.

Elmi tədqiqat işlərinin zamanın tələblərinə uyğun davam etdirilməsi üçün, Azərbaycan Milli Elmlər Akademiyasına (AMEA) xüsusi diqqət yetirilirdi. Təsadüfi deyil ki, Heydər Əliyevin elm siyasətində əsas yeri AMEA tuturdu. Bu qurum Azərbaycan dövlətçiliyi üçün strateji əhəmiyyət kəsb edir. Kifayət qədər peşəkar elmi kadrlara, elmin bütün sahələri üzrə fundamental tədqiqat aparmaq potensialı və təcrübəsinə, dinamik fəaliyyət mexanizminə və yaxşı təşkil edilmiş institutlaşmaya malik AMEA-nı inkişaf etdirmək tarixi zərurətdir.

Ulu öndərin AMEA-nın Azərbaycan elmində tutduğu yerə verdiyi qiymətdə onun elm siyasətinin iki aspektinin vəhdəti ifadə olunub. Birinci aspekt elmi fəaliyyətin ölkə və dövlətçilik üçün xüsusi əhəmiyyət daşıması ilə bağlıdır. Kreativ düşüncəli, yaradıcı insanların işləməsi üçün lazımi şərait yaradılmalı idi. Artıq formalaşmış struktur-funksional keyfiyyətlərə malik AMEA bunun üçün ideal modeldir. İkinci aspekt Azərbaycanda elmi fəaliyyətin institutlaşması ənənəsini saxlamaqla, yeni təşkilatlanma və strukturlaşma modelləri axtarışlarını koordinasiyalı aparmaq zərurəti ilə əlaqəli idi. Yalnız AMEA bu cür geniş miqyaslı və çoxhədəfli prosesin nüvəsi rolunu oynaya bilərdi. Bu elm məbədinin tarixi və hazırda malik olduğu mənəvi, intelektual, funksional, maddi-texniki və idarəetmə təcrübəsi belə qənaətə gəlməyə tam əsas verirdi.

Zaman Heydər Əliyevin AMEA-nı Azərbaycan elminin məhək daşı kimi görməkdə nə dərəcədə haqlı olduğunu sübut etməkdədir.

Ümummilli lider Heydər Əliyev ictimaiyyət nümayəndələri ilə ilk görüşünü Elmlər Akademiyasında keçirməklə, ölkə ziyalılarına, intelektual potensiala çox böyük dəyər verdiyini, etimad etdiyini, onlara arxalandığını bir daha göstərmişdi.

1997-ci il yanvarın 31-də Heydər Əliyev Elmlər Akademiyasının rəhbərliyini və aparıcı alimlərin bir qrupunu qəbul edərək elm sahəsində islahatların aparılmasının vacibliyini qeyd etmiş, Azərbaycanın inkişaf strategiyasının əsas müddəalarını və Elmlər Akademiyasının bundan irəli gələn vəzifələrini müəyyənləşdirmişdir: “İndi Azərbaycan müstəqil bir dövlətdir. Azərbaycan Elmlər Akademiyası dövlət Elmlər Akademiyasıdır. Bizim akademiyamızın gərək strategiyası olsun, akademiya gərək öz işini bu strategiya əsasında qursun”.

Azərbaycan Prezidenti cənab İlham Əliyev AMEA-nın 60 illik yubileyində etdiyi çıxışında məhz bu məqamı xatırlayaraq Ümummilli liderimizin bu müdrik addımına belə aydınlıq gətirmişdir: “O görüş rəmzi xarakter daşıyırdı. Çünki, Azərbaycan alimləri, ziyalıları ölkəmizin, cəmiyyətimizin elitasıdır. Onların dünyagörüşü, mövqeyi, hərəkətləri, fəaliyyəti Azərbaycanın inkişaf dinamikasını, inkişaf perspektivlərini xeyli dərəcədə müəyyən edir”.

Ulu öndər Heydər Əliyevin 15 may 2001-ci il tarixli Fərmanı ilə Azərbaycan Elmlər Akademiyasına “Azərbaycan Milli Elmlər Akademiyası” adı verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Milli Elmlər Akademiyasının gənc alimlərinin Avropanın elmi mərkəzlərində doktorantura təhsilinin maliyyələşdirilməsi haqqında” 2010-cu il 9 fevral tarixli Sərəncamı isə respublikada elmi tədqiqatların müasir standartlar səviyyəsində aparılmasını, ölkənin elmi kadr potensialının artırılmasını və Azərbaycan elminin beynəlxalq elm məkanına inteqrasiyasının təmin olunmasını daha da sürətləndirmək məqsədi daşıyırdı.

Elmin, texnikanın, təhsilin, mədəniyyətin inkişafı hər zaman Ulu Öndər Heydər Əliyevin diqqət və qayğı mərkəzində olmuşdur.

Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan Milli Elmlər Akademiyası bağlanmaq təhlükəsi ilə üzləşəndə ümummilli lider Heydər Əliyev görkəmli alimlərimiz və ziyalılarımızla görüşmüş, onlarla fikir mübadiləsi aparmış, AMEA-nın dirçəlməsi və inkişafı üçün əməli addımlar atmış, AMEA-ya milli sərvətimiz kimi dəyər vermişdir.

Dahi Heydər Əliyevin elmə qayğısının nəticəsidir ki, bu gün Azərbaycan alimlərinin səsi dünyanın nüfuzlu elm mərkəzlərindən gəlir və alimlərimiz öz elmi əsərlərini mötəbər elmi nəşrlərdə dərc etdirirlər.

*“Azərbaycan Milli Elmlər Akademiyası bizim milli sərvətimizdir. Onu qoruyub saxlamalıyıq”.*

*“Müstəqil Azərbaycanın Elmlər Akademiyası bütün elmi potensialı özündə cəmləyərək, xalqımızın yaradıcılıq sahəsində nəyə qadir olduğunu dünyaya göstəribdir”.*

*“Azərbaycan Elmlər Akademiyasının keçdiyi şərəfli yol Azərbaycan xalqının tarixində böyük bir səhifədir”.*

***Heydər Əliyev***
*Ümummilli lider*

Ulu Öndər həmişə fəxr və qürur hissi ilə qeyd etmişdir: “Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!”

Ulu Öndər xalqı üçün yaşayıb-yaratdı, bütün ömrünü xalqına həsr etdi.

Heydər Əliyev nadir insanlardan idi ki, hamının qəlbinə yol tapmağı bacarırdı. Yaddaşlarda iz qoyurdu. Bu dahi şəxsiyyət ensiklopedik biliyə sahib idi. Güclü, heyrətamiz yaddaşa malik idi ki, bu xüsusiyyət də, əsl rəhbərə xas özəllik idi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev başladığı siyasi və iqtisadi kursu davam etdirə biləcək bir siyasi lider kimi İlham Əliyevi görürdü. O deyirdi: “İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə

İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Dahi şəxsiyyət Heydər Əliyevin bu müdrik kəlamları onun möhtəşəm siyasi uzaqgörənliyinin bir nümunəsi idi. Ali Baş Komandan İlham Əliyev onun bütün ümidlərini doğrultdu. İlham Əliyev Ulu öndər Heydər Əliyevin başladığı, lakin çatdıra bilmədiyi işi - Qarabağın azad edilməsini uğurla başa çatdırdı.

Prezident İlham Əliyevin qətiyyətli və məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycanın Müzəffər Ordusu 30 illik işğala son qoydu. Beləliklə, düşmənin illərlə yaratdığı "məğlubedilməz ordu" mifi 44 gün ərzində bütün dünyanın gözü qarşısında fiaskoya uğradı, Ermənistan ordusu darmadağın edildi və "Dəmir yumruq" əməliyyatı Azərbaycanın Şanlı Qələbəsi ilə başa çatdı. Geniş dünyagörüşünə, dərin və hərtərəfli biliyə, yüksək mədəniyyətə malik olan Ali Baş Komandan İlham Əliyev müharibə dövründə onlarla müsahibələr vermiş, bəzi ermənipərəst jurnalistlərin təxribat dolu suallarını tarixi faktlar və dəlillərlə cavablandırmışdır.

44 günlük Vətən müharibəsi nəticəsində Qarabağın azad edilməsi Azərbaycana qeyri-adi qürur, iftixar, qələbə sevinci bəxş etdi. Heydər Əliyevin qurduğu müstəqil Azərbaycan dövlətinin qüdrət və əzəmətinə tarixi möhür vurdu.

2020-ci il noyabr ayının 8-də Şuşanın azad olunması münasibətilə Prezident, Ali Baş Komandan İlham Əliyevin öz çıxışında qeyd etdi ki, "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim". Bu Ümummilli lider Heydər Əliyevin başladığı möhtəşəm işin məntiqi yekunu idi.

Bu gün ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasi və iqtisadi kurs Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir və inkişaf etdirilir. Qətiyyətlə deyə bilərik ki, bu gün Azərbaycan Respublikasının əldə etdiyi nailiyyətlər elmi təməl üzərində həyata keçirilən uğurlu siyasətə əsaslanır.

**Nəticə**

*Heydər Əliyevin xalq qarşısında xidmətləri, arzuları, misilsiz və möhtəşəm idi. Ümummilli Lider deyirdi: "Mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram". Ümummilli lider həyatının mənasını yalnız xalqına xidmətdə görmüş, ömrünü onun firavan, xoşbəxt gələcəyinə həsr etməkdən şərəf duymuşdur.*

*Heydər Əliyev nadir insanlardan idi ki, hamının qəlbinə yol tapmağı bacarırdı. Yaddaşlarda iz qoyurdu. Bu dahi şəxsiyyət ensiklopedik biliyə sahib idi. Güclü, heyrətamiz yaddaşa malik idi ki, bu xüsusiyyət də, əsl rəhbərə xas özəllik idi.*

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev başladığı siyasi və iqtisadi kursu davam etdirə biləcək bir siyasi lider kimi İlham Əliyevi görürdü. O deyirdi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".*

*Dahi şəxsiyyət Heydər Əliyevin bu müdrik kəlamları onun möhtəşəm siyasi uzaqgörənliyinin bir nümunəsi idi. Ali Baş Komandan İlham Əliyev onun bütün ümidlərini doğrultdu. İlham Əliyev Ulu öndər Heydər Əliyevin başladığı, lakin çatdıra bilmədiyi işi - Qarabağın azad edilməsini uğurla başa çatdırdı.*

*Bu gün ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasi və iqtisadi kurs Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir və inkişaf etdirilir.*

**Ədəbiyyat siyahısı:**

1. Heydər Əliyev 90 - "Azərbaycan və azərbaycanlılar" jurnalı No.1-4, 2013.
2. Azərbaycan qəzeti - may 2023.
3. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Azərbaycan Elmlər Akademiyasına "Milli Elmlər Akademiyası" statusu verilməsi haqqında" 15 may 2001-ci il tarixli Fərmanı.
4. Məlikli Günel. Azərbaycan Milli Elmlər Akademiyasının şərəfli tarix yolu, elmi red.: akad. İsa Həbibbəyli, Bakı: Elm, 2020. 231 s.
5. Heydər Əliyev // https://az.wikipedia.org/wiki/Heyd%C9%99r_%C6%8Fliyev
6. Dahiliyin Heydər Əliyev zirvəsi // http://anl.az/down/meqale/azerbaycan/2013/may/309444.htm

**Nurana Chalabiyeva**
**The founder of the Independent State of Azerbaijan, a Genius who wrote history**

The name of Heydar Aliyev, who has a wise policy, irrevocable conviction and historical foresight, has left a mark in history as the founder and architect of the modern state of Azerbaijan.

The founder of the independent state of Azerbaijan, national leader Heydar Aliyev paid special attention to the development of science and education during all periods of his power, and first of all thought about the intellectual future of the people. The greatness of Heydar Aliyev's genius lies precisely in the fact that throughout his career he paid attention and care to these areas and worked to form a highly educated, intellectual and elite class in society.

***Key words:*** *Azerbaijan, Azerbaijaniism, nation, personality, politics, creed.*

Filologiya üzrə elmlər doktoru, professor
**Kamandar Şərifov** tərəfindən çapa tövsiyə olunmuşdur.